1_Layout 1 27.11.2019 19:07 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 23 (564)

30 noyabr 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Prezident İlham Əliyev Bolqarıstanın Daxili İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Xoş gəlmisiniz. Düşünürəm ki, ölkələrimizi bir-birinə bağlayan məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, yüksək səviyyədə qarşılıqlı səfərlər bizim əlaqələrimizi möhkəmləndirir. Mən bir neçə dəfə, o cümlədən rəsmi səfərlə sizin ölkənizdə olmuşam. Bolqarıstan prezidentləri dəfələrlə Azərbaycana səfər ediblər. Həmçinin, Baş Nazir cənab Borisov da bizim qonağımız olub. Beləliklə, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur.

Əlbəttə ki, biz energetika sahəsində də əməkdaşlıq edirik. Bolqarıstan Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının işində həmişə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Əminəm ki, ölkələrimizi birləşdirən bu layihə yaxın vaxtda uğurla başa çatdırılacaq. Beləliklə, uzun illər ərzində biz energetika gündəmi ilə bağlı olacağıq. Lakin, həmçinin, əmtəə dövriyyəsinin də artırılmasını nəzərdə tuturuq. Düşünürəm ki, Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılmasından sonra ölkələrimizin biznes qurumları bir-birilə daha çox əlaqə saxlayacaq və daha sıx əməkdaşlıq edəcəklər.

Gələcək əməkdaşlığın daha bir istiqaməti nəqliyyat sahəsidir. Azərbaycan artıq qonşu ölkələrə və digər dövlətlərə yüklərin Şərq-Qərb marşrutu ilə daşınması üçün tranzit xidmətləri göstərir. Beləliklə, əminəm ki, bu mühüm dəhlizin genişləndirilməsi ilə ölkələrimizdən yük göndərənlər əməkdaşlıq üçün əlavə imkanlar əldə edəcəklər.



Əlbəttə, siz səfər çərçivəsində həm Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq mövzusuna, həm də ictimai asayişin, təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunacaqsınız. Təcrübə mübadiləsi də böyük əhəmiyyət kəsb edir. Daxili işlər orqanları ictimai asayişin qorunması, vətəndaşların dinc yaşayışının təmin edilməsi üzrə mühüm vəzifəni yerinə yetirirlər. Lakin qeyd etməliyəm ki, artıq uzun illər ərzində həm Bolqarıstanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin olduğunu nəzərə alaraq, polis orqanlarının işi sizin bəzi həmkarlarınızın işindən daha azdır. Biz bir sıra inkişaf etmiş ölkələrin polis orqanlarının demək olar ki, hər gün nümayişçilərlə necə davrandığını, onları döydüklərini, öldürdüklərini, xəsarət yetirdiklərini, qaz, su, dəyənəklə, itlərlə qovduqlarını və çox böyük qəddarlıq nümayiş etdirdiklərini televiziyada görürük. Həm də biz bu cür halları dünyanın müxtəlif ölkələrində, müxtəlif regionlarında, o cümlədən ən inkişaf etmiş ölkələrdə görürük. Lakin Azərbaycanda bizi bir məsələ həmişə maraqlandırır, nə üçün insanların hüquqlarının təmininə cavabdeh olan beynəlxalq təşkilatlar bəzən dinc nümayişçilərin qəddarcasına, qeyri-insani dağıdılmasını görərkən susurlar? Azərbaycanda hansısa kiçik epizod baş verdikdə isə, məsələn, təxminən bir ay əvvəl qanunsuz aksiyanın qarşısının heç bir güc tətbiq etmədən alınmasından sonra beynəlxalq təşkilatlar, bəzi ölkələrin Azərbaycandakı səfirləri bəyanatlar verməyə başlayıblar və az qala hökumətimizi ittiham etməyə cəhd ediblər. Bu hal Avropada həm də qurbanlarla, qətllərlə, xəsarətlərlə, nümayişlərin dağıdılması ilə baş verdikdə isə hüquq müdafiə təşkilatları və beynəlxalq strukturlar susurlar. Bu, ikili standartların təzahürüdür və bu ikili standartlar onları nümayiş etdirən həmin təşkilatları nüfuzdan salır. Kimisə hər hansı məsələdə ittiham etmək üçün, ilk növbədə, buna mənəvi haqqın olmalıdır. Bizi isə bəzən insan hüquqlarını kobud şəkildə pozanlar və dinc nümayişçiləri qəddarcasına dağıdanlar ittiham etməyə cəhd göstərirlər.

Lakin bir daha demək istəyirəm ki, istər Bolqarıstanda, istərsə də Azərbaycanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur. Sizin ölkəniz mənim dostum cənab Borisovun rəhbərliyi ilə inkişaf və sabitlik yolu ilə irəliləyir. Biz bunu yüksək qiymətləndirir və sizi bütün bu uğurlar münasibətilə təbrik edirik. Beləliklə, mən bizim daxili işlər orqanlarının işinin o qədər də çox olmadığını dedikdə, məhz bunu nəzərdə tuturam. Arzu edirəm ki, həmişə sizin işiniz az olsun.

Bir daha xoş gəlmisiniz.

X X X

Daxili İşlər naziri Mladen MARİNOV dedi:

- Hörmətli cənab Prezident, çox sağ olun. Sizin məni qəbul etməyiniz mənim üçün böyük şərəfdir. İcazə verin, Sizi cənab Baş Nazir Boyko Borisovun adından salamlayım.

Azərbaycan bizim həm energetika sahəsində, həm də gələcək nəqliyyat dəhlizlərinin inkişafında, iqtisadi əlaqələr üzrə və təhlükəsizlik sahəsində strateji tərəfdaşımızdır. Cənub Qaz Dəhlizinin tikintisinin vaxtında başa çatdırılmasına nail olmaq və beləliklə, bir milyard kubmetr qaz tədarükünü təmin etmək bizim üçün çox vacibdir.

X X X

Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Bolqarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinov ölkəmizə rəsmi səfərə gəlib.***

Noyabrın 21-də cənab Mladen Marinov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb.

Qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Sonra Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir dəvətini qəbul edərək ölkəmizə rəsmi səfər etdiyinə görə bolqarıstanlı həmkarına təşəkkür edib, onun Sofiya şəhəri Daxili İşlər Direktoratlığının rəisi vəzifəsində çalışarkən Avropa paytaxt polis rəislərinin 2015-ci il avqust ayında Bakıda keçirilmiş 37-ci konfransında iştirakını məmnunluqla xatırladıb.

Azərbaycan Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin sürətli inkişaf və tərəqqi yolu keçdiyini, beynəlxalq nüfuzunun yüksəldiyini, respublikamızda əsrlər boyu müxtəlif dinlərə, millətlərə mənsub insanların qarşılıqlı ehtiram və həmrəylik şəraitində yaşadıqlarını diqqətə çatdıran nazir son illər əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluğunu ifadə edib, belə qarşılıqlı səfərlər və təmasların əməkdaşlığın daha da genişləndirilməsinə təkan verəcəyini bildirib.



Daha sonra cənab V.Eyvazov müstəqilliyin ilk illərində ölkədə hökm sürmüş hərcmərclik, anarxiya, cəzasızlıq mühiti, eyni zamanda, Ermənistanın hərbi müdaxiləsi nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, nəticədə 1 milyondan artıq soydaşımızın doğma yurd yerlərindən didərgin düşməsi, yalnız xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti, onun rəhbərliyi ilə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkədə asayişin, əmin-amanlığın bərpa edilməsi, kriminogen durumun nəzarət altına alınması, bugünkü ictimai-siyasi sabitliyin dönməzliyinin təmin olunması üçün görülən işlər barədə qısa məlumat verib.

Daxili işlər orqanlarında həyata keçirilən genişmiqyaslı hüquqi-demokratik islahatlar barədə məlumat verən nazir əməliyyat-xidməti fəaliyyətin beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının önə çəkildiyi yeni normativ-hüquqi bazanın yaradılması istiqamətində görülən işlər barədə danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğunu diqqətə çatdırıb.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına Bolqarıstanın verdiyi dəstəyin respublikamızda yüksək qiymətləndirildiyini nəzərə çatdıran nazir V.Eyvazov siyasi, iqtisadi-ticari əlaqələrin dinamik inkişafının təhlükəsizliyin etibarlı təmini ilə birbaşa əlaqəsi olduğunu qeyd edib, hazırkı səfərin ölkələrimizin Daxil İşlər nazirlikləri arasındakı əməkdaşlığın möhkəmləndirilməsində önəmli mərhələ olacağına əminliyini ifadə edib. Bu gün dünyadakı mövcud təhdid və çağırışların terrorizmlə, ekstremizmlə, həmçinin, transmilli mütəşəkkil cinayətkarlığın bütün növləri ilə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi, belə qlobal xarakterli təhlükələrə qarşı kəsərli tədbirlərin görülməsində operativ informasiya və qabaqcıl təcrübə mübadiləsinin, əməkdaşlığın müqavilə-hüquqi bazasının daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Daha sonra general-polkovnik V.Eyvazov bu yöndə ekspertlərin iştirakı ilə 27 aprel 2012-ci tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolun hazırlanaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırıldığını, ölkəmizin Avropa İttifaqının üzvü olan bir dövlətlə ilk dəfə imzalanması nəzərdə tutulan həmin sənəddə hər iki tərəfin maraq və mənafelərinin, beynəlxalq öhdəliklərinin nəzərə alındığını qeyd edib, onun cinayətkarlığa qarşı mübarizə sahəsində birgə işbirliyinin səmərəliliyinin daha da artırılmasına xidmət edəcəyinə əminliyini bildirib.

Rəsmi dəvətə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Mladen Marinov Bolqarıstanın ilk Daxili İşlər naziri kimi respublikamıza rəsmi səfər etməsindən fəxarət duyduğunu, dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə genişlənərək daha da dərinləşdiyini, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb, rəhbərlik etdiyi qurumun çoxşaxəli funksional vəzifələri və fəaliyyət istiqamətləri, ölkəsindəki mövcud kriminogen durum, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün sonunda Daxili İşlər nazirləri general-polkovnik Vilayət Eyvazov və Mladen Marinov "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolu imzalayıblar.

**Qəbulda ölkəmizin Bolqarıstandakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova və Bolqarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov iştirak ediblər.**

# MƏQSƏD BİRDİR: YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ GÜCLÜ NİZAM-İNTİZAM

**Ötən sayımızda Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən ayrı-ayrı bölmələrinin xidməti fəaliyyətilə sizləri tanış etmişdik. Bu sayımızda isə həmin hərbi hissənin komendant bölüyündə, eləcə də şəxsi heyətin təminatında təqdirəlayiq xidməti və nizam-intizamı ilə seçilən hərbi qulluqçuları təqdim edirik.**

## Etibarlı mühafizə və müdafiə xidmətimizin başlıca məqsədidir

Döyüş Bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsi komendant bölüyünün fəaliyyətinin əsasını təşkil edir. 2018-ci ilin və 2019-cu ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekununa görə, komendant bölüyü bölüklər arasında birinci yerə layiq görülüb.

Bölük komandiri baş leytenant Elçin Həmidov bölükdə mövcud olan yüksək döyüş hazırlığını və hərbi intizamı saxlamaqla bərabər, əldə olunan bu nailiyyəti də qorumaq əzmində olduqlarını bildirdi: "İlin istənilən fəslində xidmətin nümunəvi aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Yuxarıda qeyd olunan iradə, dözümlülük və digər müsbət keyfiyyətləri isə xidmətə cəlb olunan qarovul nəfərlərinin hər birində görmək olar.

Bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir. Kollektivin birgə zəhmətinin nəticəsində ardıcıl olaraq xidməti-döyüş fəaliyyətinin yekunlarına görə əldə etdiyimiz müsbət nailiyyətlər işimizi düzgün istiqamətdə qurmağımızın göstəricisidir. İndi başlıca hədəfimiz qazandığımız nailiyyəti əldən verməməkdir".

Bölük komandiri ilə birgə qarovul məntəqəsinə də baş çəkdim. Ayıq növbə ilə qarovul xidmətinin xüsusiyyətləri, nizam-intizamın qorunub saxlanılması mövzusunda tərbiyəvi söhbətlər apardım. Söhbətlər zamanı əsgərlərin yüksək döyüş və hərbi-vətənpərvərlik ruhuna malik olmaları və Daxili Qoşunlarda xidmətləri ilə fəxr etmələri aydın hiss olunurdu. Vəzifə borcları ilə yanaşı, Daxili Qoşunların və xidmət etdikləri hərbi hissənin respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi qəhrəmanlıqlarla zəngin döyüş yolu barədə suallara da geniş və düzgün cavab verdilər.

Bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rəşad Fikiri, taqım komandirinin müavini baş çavuş Rövşən Məmmədov, manqa komandirləri: çavuş Ziya Gözəlov, kiçik çavuş Ayxan Atakişiyev, əsgərlərdən: baş əsgərlər Sərxan Səfixanov, Tariyel Salmanov, İlqar Fərəcov və əsgər Məhəmməd Vəliyev bölüyün nümunəvi xidmət edən fəal hərbi qulluqçularıdır.







Baş leytenant E.Həmidov adları qeyd edilən hərbi qulluqçuların bölükdəki digər yoldaşlarına nümunə olduqlarını bildirdi.

## Sürücülük daha çox diqqət tələb edir

Avtomobil parkında qızğın xidməti fəaliyyətin şahidi oldum. Sürücü heyəti tərəfindən nəqliyyat vasitələrinə texniki xidmətlər göstərilməklə yanaşı, bir sıra təmir işləri də aparılırdı.

Hərbi hissənin maddi-texniki təminat xidmətlərində avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Cəbrayıl Qədirov burada texnikaların vəziyyətinə mütəmadi olaraq nəzarət edilməklə yanaşı, sürücü heyətinin ixtisas hazırlığına diqqətin artırıldığını qeyd etdi: "Hərbi hissənin avtomobillərinin texniki vəziyyəti, sürücülərin hazırlıq səviyyəsi daim diqqət mərkəzində olan məsələlərdəndir. Ona görə də xəttə çıxan avtomobillərin texniki cəhətdən saz və təmiz olmasına daim fikir verilir. Qarşıya qoyulmuş tapşırıqların vaxtında yerinə yetirilməsi üçün şəxsi heyətin təhlükəsiz daşınmasını təmin etmək avtomobil xidmətinin əsas vəzifələrindəndir. Bu zaman şəxsi heyətin təhlükəsizliyi texnikanı idarə edən sürücülərdən çox asılıdır. Ümumiyyətlə, sürücülük daha çox diqqət tələb edən peşədir. Ona görə də sürücü vəzifəsində olan, eləcə də avtomobil xidməti üzrə digər mütəxəssis hərbi qulluqçuların peşə hazırlığının yüksəldilməsi məqsədilə keçirilən ixtisas hazırlığı məşğələlərinin əhəmiyyətini müsbət qiymətləndirmək olar. Məşğələlərdə avtomobillərin quruluşu, nəqliyyat vasitələrinin texniki və istismar xüsusiyyətləri ilə yanaşı, hərəkət təhlükəsizliyinin əsasları və yol hərəkəti qaydaları üzrə tələblər də onların diqqətinə çatdırılır".





Mayor C.Qədirov hərbi hissədə nəqliyyat vasitələrinə texniki xidmət və təmir işlərinin aparılmasında yüksək peşəkarlıq göstərən, xidməti-vəzifə borclarının icrasına layiqincə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etdi. Bunlar gizir Vaqif Rəcəbov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları: baş çavuş Röyal Həsənov, baş çavuş Xaləddin Qardaşov, çavuş Ruzi Ağayev, baş əsgər Nofəl İsgəndərov, əsgər Sadiq Əliyev və əsgər Xanlar Rzayevdir.

Məlumat üçün qeyd edək ki, Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmrinin tələbinə uyğun olaraq, cari ilin oktyabr ayının 16-dan 19-dək DQBİ-nin Maddi-texniki təminat İdarəsində avtomobil və zirehli texnika şöbəsinin zabitləri tərəfindən hərbi hissənin nəqliyyat vasitələrinə illik texniki baxış keçirilib. Maddi-texniki təminat İdarəsində avtomobil və zirehli texnika şöbəsi rəisinin müavini polkovnik-leytenant Elşad Əliyevin bildirdiyinə görə, baxış zamanı nəqliyyat vasitələrinin texniki vəziyyəti, qorunub saxlanılması, normalara uyğun əmlaklarla komplektləşdirilməsi, texniki xidmət və istismarın təşkili, yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə keçirilən tədbirlərin vəziyyəti, eyni zamanda, sürücülərin, təmirçilərin praktiki bilik və bacarıqları "əla" qiymətləndirilib. O, əldə olunmuş bu nailiyyətin mayor C.Qədirovun öz vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmasının nəticəsi olduğunu vurğuladı.



## Sağlamlığın keşiyində

Həkimlik peşəsi insanlar tərəfindən həmişə hörmətlə qarşılanıb. Çünki həkimin işi bilavasitə insanların sağlamlığını qorumaqla bağlıdır.

Daxili Qoşunların sıralarında bu müqəddəs peşəyə qəlbən bağlı olan, nümunəvi xidmətilə şəxsi heyətin sağlamlığının keşiyində ayıq-sayıq xidmət aparan həkim silahdaşlarımız var. Hərbi hissənin tibb məntəqəsində tibb personalının fəaliyyəti ilə yaxından tanış olarkən bu qənaətə gəldim.

Hərbi hissənin tibb xidməti rəisi tibb xidməti mayoru Şahin Əliyev tibb məntəqəsi tərəfindən həyata keçirilən əsas profilaktik tədbirlərə geniş aydınlıq gətirdi: "Mütəmadi olaraq şəxsi heyətə bədən baxışlarının keçirilməsi və müvafiq sorğuların aparılması fəaliyyətimizin ilk pilləsini təşkil edir. Bundan əlavə, hərbi qulluqçular arasında sağlamlıqla bağlı hər hansı bir problem olduqda, təbii ki, tibb məntəqəsinə müraciət olunur. İlkin tibbi müayinə aparıldıqdan sonra, xəstəliyin dərəcəsinə uyğun olaraq, hərbi qulluqçuya ambulator və ya stasionar müalicə təyin edilir. Stasionar müalicə təyin edilmiş hərbi qulluqçu məntəqənin lazaretinə qəbul olunaraq, müalicəsini davam etdirir. İxtisaslı müayinə və müalicəyə ehtiyacı olan hərbi qulluqçular yerli səhiyyə müəssisələrinə və ya Daxili Qoşunların Qospitalına göndərilir".

Tibb xidməti mayoru Ş.Əliyev, həmçinin, tibb məntəqəsində nümunəvi xidməti ilə fərqlənən və mütəmadi olaraq öz sahəsi üzrə bilik və bacarığını artıran həkim-stomatoloq tibb xidməti baş leytenantı Elçin Seyidovun fəaliyyətini yüksək qiymətləndirdi.

Tibb xidməti baş leytenantı E.Seyidov 1989-cu il mayın 22-də Mingəçevir şəhərində anadan olub. 2007-2012-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetində ali təhsil alıb. 2012-ci ildə bu təhsil ocağını həkim-stomatoloq ixtisası üzrə bitirərək, bir müddət Mingəçevir şəhər Stomatologiya Poliklinikasında öz sahəsi üzrə həkim işləyib. 2015-ci ilin may ayından etibarən Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin tibb xidmətinin tibb məntəqəsində, "gizir" hərbi rütbəsində öz sevimli peşəsi üzrə xidmətə başlayıb. Azərbaycan Respublikası Daxili İşlər nazirinin 2016-cı il tarixli müvafiq əmri ilə ona "tibb xidməti leytenantı", Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının 2019-cu il tarixli müvafiq əmrilə isə növbəti "tibb xidməti baş leytenantı" hərbi rütbəsi verilib.

Özünün də qeyd etdiyi kimi, bu gün hərbi hissənin şəxsi heyətinin sağlamlığının keşiyində durmaq, bir həkim kimi onun ən ümdə vəzifələrindən biridir: "Hərbi hissənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında əsas amillərdən biri də şəxsi heyətin sağlamlığının qənaətbəxş olmasıdır. Sağlam bədəndə sağlam ruh olar deyiblər. Unutmamalıyıq ki, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksək olmasında da sağlamlıq mühüm faktorlardan biridir. Bu baxımdan şəxsi heyətin sağlamlığının keşiyində durmaq biz həkimlərin əsas vəzifəsidir".

Tibb xidməti rəisi, həmçinin, şəxsi heyətin sağlamlığının keşiyində duran, eləcə də yüksək nizam-intizamı və nümunəvi xidmətilə fərqlənən digər hərbi qulluqçuların adlarını da qeyd etdi. Tibb məntəqəsində həkim-terapevt gizir Aynur Vəliyeva, feldşer gizir Kamran Cənnətov, sanitar təlimatçı-dezinfektor baş çavuş Şahin Həsənov və dezinfektor baş çavuş İsrafil Allahverdiyev öz vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçulardır.

Onu da qeyd edim ki, tibb məntəqəsinin daxilindəki səliqə-sahman, eləcə də ətrafdakı yaşıllıq və abadlıq buranın həqiqətən də sağlamlıq mərkəzi olmasının göstəricisidir.













## Şəxsi heyətin təminatı yüksək səviyyədədir

Hərbi hissənin və bölmələrin xidməti fəaliyyətindən bəhs edərkən, onların qarşısında qoyulmuş tapşırıqların uğurla icra olunmasında arxa cəbhə təminatının vəziyyətini də qeyd etmək lazımdır. Ümumiyyətlə, Daxili Qoşunlarda aparılan geniş abadlıq-quruculuq və təmir-tikinti işləri nəticəsində şəxsi heyətin sosial-məişət şəraiti xeyli yaxşılaşmışdır. Bu baxımdan hərbi hissənin əsgər yeməkxanası təmizliyi və səliqə-sahmanı ilə diqqəti cəlb edir. Ən əsası isə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının sağlam qidalanması, eləcə də isti və keyfiyyətli yeməklərin hazırlanması üçün burada hər bir şərait mövcuddur. Aşpazların ağ və səliqəli geyim dəstləri, yeməklərin hazırlanması zamanı gigiyena qaydalarına riayət olunması bu sahəyə cavabdeh şəxslərin ciddi münasibətinin olmasından xəbər verir. Yeməkxanada olarkən hərbi qulluqçularla apardığım söhbətlər zamanı hazırlanan yeməklərin keyfiyyətindən razı qaldıqlarını bildirdilər.

Hərbi hissədə əsaslı təmir edilərək şəxsi heyətin istifadəsinə verilən hamam-çamaşırxana kompleksi, əsgər kazarmaları və yeməkxanası, əyani vəsaitlərlə təchiz edilmiş ixtisas hazırlığı sinifləri, bir sözlə, yaradılan hərtərəfli şərait Daxili İşlər naziri və Daxili Qoşunlar komandanlığının şəxsi heyətə olan diqqət və qayğısının bariz nümunəsidir. Hərbi hissənin şəxsi heyəti göstərilən diqqət və qayğını qarşılıqlı olaraq, yüksək döyüş hazırlığı, nizam-intizamı və nümunəvi xidmətilə hər zaman doğrultmağa çalışır.

Onlara xidməti fəaliyyətlərində uğurlar arzu edirik.

**mayor Anar Əhmədov**

3_Layout 1 28.11.2019 9:36 Page 1



# 25031 SAYLI HƏRBİ HİSSƏ YARADILMASININ 25-ci İLDÖNÜMÜNÜ QEYD EDİB

**Noyabrın 19-da Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin yaradılmasının 25-ci ildönümü qeyd edilib. Bu münasibətlə hərbi hissədə mərasim keçirilib. Mərasimdə Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Mirzəyev, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, Daxili Qoşunların Veteranlar Şurasının üzvləri - Telman Aslanov, Səfxan Bayramov və Yalçın Abbasov iştirak ediblər.**



Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Hərbi hissə komandiri polkovnik Əhliman İlmazov çıxış edərək hərbi hissənin keçdiyi yol barədə məlumat verib. Bildirilib ki, ölkəmiz üçün çətin və keşməkeşli bir dövrdə yaradılan hərbi hissə tədris təyinatı əsas götürülərək mərhələ-mərhələ inkişaf edib. 1994-cü ildən bu günədək hərbi hissənin təşkilati-ştat strukturu təkmilləşdirilərək bir neçə dəfə dislokasiya yerini dəyişib. Ötən illər ərzində hərbi hissə şəxsi heyətin təlimi prosesində zəngin təcrübə toplayıb.



Qeyd olunub ki, 25 illik yubileyini qeyd edən hərbi hissədə yenidənqurma və quruculuq işləri aparılıb, peşəkarlıq səviyyəsi, döyüş hazırlığı yüksəlib, maddi-texniki bazası möhkəmləndirilərək müasir standartlara uyğun xidmət və məişət şəraiti yaradılıb.

Polkovnik Ə.İlmazov onu da vurğulayıb ki, bu gün Daxili Qoşunların sıralarına çağırışçıların mərkəzləşdirilmiş qəbulu, onların təlim-tərbiyə prosesi, hərbi andiçmə mərasimləri keçirilir. Burada sıralarımıza yeni qəbul olunan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının dövlətçiliyə sədaqət, Vətənə məhəbbət, Daxili Qoşunların şərəfli ənənələrinə ehtiram ruhunda tərbiyə edilməsi diqqət mərkəzində saxlanılır.

**Daha sonra Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun təbrik məktubu şəxsi heyətə çatdırılıb.**

Təbrikdə hərbi hissənin keçdiyi şərəfli yol vurğulanıb. Bildirilib ki, ötən 25 il ərzində hərbi hissənin maddi - texniki bazası möhkəmlənib, döyüş təlimi və xidmət səviyyəsi artırılıb, həmçinin, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə olunub. Qeyd olunub ki, qoşunların tədris hərbi hissəsi kimi bu gün hərbi hissənin qarşısında mühüm vəzifələr durur. Bu istiqamətdə indiyə qədər görülən təqdirəlayiq işlərlə bərabər, şəxsi heyətin bundan sonra da yüksək bilik və bacarıq nümayiş etdirərək, verilən tapşırıqları tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadir olduğu vurğulanıb.

Təbrik məktubunda şəxsi heyətin bundan sonra da Vətən, dövlət və xalq qarşısında öz şərəfli borcunu düzgün dərk edərək, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi etimadı doğruldacağına əminlik ifadə edilib.

Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Mirzəyev və Veteranlar Şurasının üzvü Səfxan Bayramov da tədbirdə çıxış edərək, şəxsi heyəti bu əlamətdar gün münasibətilə təbrik edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. Nərimanov Rayon İcra Hakimiyyəti adından hərbi hissəyə fəxri fərman və qiymətli hədiyyə təqdim olunub.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, hərbi intizamın möhkəmləndirilməsində qazandıqları nailiyyətlərə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə və hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə bir qrup hərbi qulluqçu hərbi hissə komandirinin müvafiq əmrilə mükafatlandırılıb.

Tədbir Nümunəvi Göstərici Hərbi Orkestrin ifasında konsert proqramı ilə davam etdirilib.

**baş leytenant**
**Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# HƏR BİR UĞURLU NƏTİCƏ ƏZMKARLIQ TƏLƏB EDİR

**Daxili Qoşunların hərbi hissələrində hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə fiziki hazırlıq məşğələləri, sanitar-gigiyena qaydalarına əməl edilməsi, profilaktika və epidemiya əleyhinə tədbirlər müntəzəm olaraq həyata keçirilməkdədir. Hərbi qulluqçuların səhhətinin möhkəmləndirilməsi sağlam və keyfiyyətli qidalanmadan da asılıdır. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması son dərəcə vacibdir.**



25032 saylı hərbi hissənin komandanlığı hərbi qulluqçuların keyfiyyətli və kalorili yeməklərlə qidalanmasını daima diqqət mərkəzində saxlayır. Hazırlanan xörəklərin keyfiyyəti isə tələblərə tam cavab verir. Əlbəttə ki, bütün bu işlərdə hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi mayor Ceyhun Xəlilovun əməyi böyükdür. 2002-ci ildən Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçumuz nümunəvi xidməti, bilik və bacarıqları ilə fərqlənir. Xidməti fəaliyyəti zamanı Daxili İşlər nazirinin və Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının əmr və göstərişlərindən irəli gələn vəzifələri məsuliyyətlə yerinə yetirir.

2017-ci ilin noyabr ayından etibarən ərzaq xidmətinin rəisi vəzifəsində xidmətini davam etdirən mayor C.Xəlilov şəxsi heyətin vaxtlı-vaxtında keyfiyyətli ərzaqla təmin olunmasına, yeməkxanada sanitar-gigiyenik qaydalara ciddi əməl edilməsinə, eləcə də burada mövcud olan soyuducu və digər texniki avadanlıqların istismarına, ərzaqların qorunub saxlanılmasına nəzarət edir.

Şəxsi heyətin qidalanmasının müvafiq rəhbər sənədlərin tələbləri əsasında aparıldığını söyləyən xidmət rəisi qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Həftə ərzində hərbi qulluqçulara birinci xörək düyü şorbası, noxud əzməsi, mərci şorbası, küftə, bozbaş, borş, ikinci xörək olaraq isə makoran süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümi ilə əlaqədar olaraq, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını söylədi.

Mayor C.Xəlilovun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır, şəxsi heyətin qidalanması və suyun keyfiyyəti üzərində müntəzəm olaraq tibbi nəzarət həyata keçirilir.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər mülki işçilərin əməyindən də istifadə olunur. Mayor C.Xəlilov onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını, eyni zamanda, əsgər yeməkxanasında gigiyena qaydalarına ciddi əməl olunduğunu da diqqətə çatdırdı.

Əlavə olaraq bildirdi ki, mülki işçi aşpazlardan Əsifə Fərəcova, Sevinc Quliyeva, İradə Səfərova, əsgər aşpazlardan isə Vidadi Bağırov, Saqif Fərəcov və Gülnur Tağıyev üzərilərinə düşən vəzifələri məsuliyyətlə icra edirlər.

**baş leytenant**
**Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# Döyüşçü mətinliyi odlu səngərdə sınanır

**Zaman-zaman bu xalqı haqqa doğru aparan**
**Yoldu, izdi, naxışdı, cığırdı şəhid qanı!**

Unudulmaz şair Zəlimxan Yaqubun müəllifi olduğu bu misralarda şəhid qanı haqqa doğru aparan yol və iz kimi ifadə edilib. Hər bir xalq üçün öz varlığını və torpağını təcavüzkardan, düşməndən müdafiə etmək haqqa və ədalətə söykənən missiyadır. Bu amal uğrunda döyüşmək və mübarizə aparmaq şərəfdir. Şəhidlik zirvəsinə ucalmış qeyrətli oğullar Vətənə sədaqətli olduqlarını həyatları bahasına döyüş meydanında sübut etdilər. Öz yenilməz döyüş ruhu ilə tarix yazmış belə oğullar bədii söz xəzinəmizdə zülmətlərə nur çiləyən çırağa bənzədilir. Xalqın mənəvi ruhunun sarsılmazlığı həm də qan yaddaşını söz yaddaşı örnəklərində əks etdirməsidir.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş hərbi qulluqçularından biri də əsgər Xəlilov Cəlal Eldar oğludur. O, 1973-cü il avqust ayının 15-də Sabirabad rayonunun Çığırğan kəndində dünyaya göz açıb. Eldar Xəlilov və Nümunə Xəlilovanın qurduğu ailədə böyüyərək boya-başa çatmış, ömrünün xoşbəxt günlərini yaşamış Cəlal ləyaqətli övlad kimi yetişdirilmişdi. Cəlal ailəsinə qəlbən bağlı, el-oba qeyrətini düşünən, zəhmətkeş, iradəli və təmkinli gənc idi. Əvvəlcə doğma kəndindəki, sonra isə Azadkənddə yerləşən orta məktəblərdə təhsil alan Cəlal müəllimləri və yoldaşlarının hörmətini qazanmışdı.



Daha sonra Cəlal Sabirabad Rayon Hərbi Komissarlığının (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabirabad Rayon Şöbəsi – Y.A.) göndərişi ilə texniki-peşə məktəbində oxumuş, sürücülük ixtisasına yiyələnmişdi.

Böyük qardaşı Rauf şəxsi keyfiyyətləri baxımından Cəlal üçün ömür yolunda örnək olub. Rauf hərbi xidmətini Azərbaycandan uzaqlarda, sovet ordusu sıralarında uğurla başa vuraraq geriyə qayıtmışdı. Onun kiçik qardaşına hərbi xidmətlə bağlı verdiyi məlumatlar və tövsiyələr Cəlalın hərbi xidmət barədə ilkin təsəvvürlərini formalaşdırmış, hərbi xidmət borcunun yerinə yetirilməsinə hazırlaşmasına istiqamətləndirmişdi. Qardaşının məsləhətləri Cəlala qarşıdakı döyüş sınaqlarında da gərəkli oldu. Qeyd edim ki, hər iki qardaşın taleyinə müharibənin od-alovundan keçmək yazılmışdı...

C.Xəlilov 1992-ci ilin may ayında Sabirabad Rayon Hərbi Komissarlığı (hazırda SHXÇDX-nin Sabirabad Rayon Şöbəsi – Y.A.) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılaraq Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunub. Daxili Qoşunların Arxivindən verilən 4 noyabr 2019-cu il tarixli arayışda qeyd edilib ki, əsgər C.Xəlilov Daxili Qoşunların 3645 saylı hərbi hissəsində (indiki 25032 saylı hərbi hissə -Y.A.) hərbi xidmətə başlayıb, burada ilk vəzifəsi təlim məntəqəsində atıcı olub. O vaxt bu hərbi hissə paytaxtda təşkil edilərək yaxın bölgəyə - yeni dislokasiya yerinə köçürülüb. Burada hərbi andı qəbul edən Cəlal əsgər olaraq zəruri hərbi bilikləri mənimsəyib, təlimlərdə döyüşçü hazırlığını keçib.

Həmin dövrdə respublikamız Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı, düşmən ölkə ilə sərhəddə və Dağlıq Qarabağ bölgəsində şiddətli döyüşlər gedirdi. Soydaşlarımız öz doğma yurdlarından didərgin düşür, hər gün ön cəbhədən şəhid tabutları və yaralılar gətirilirdi. Daxili Qoşunlar da ön cəbhənin müxtəlif istiqamətlərində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Döyüş əməliyyatlarına cəlb olunan ilk hərbi hissələrimizdən biri 3650 saylı hərbi hissə (indiki 67987 saylı hərbi hissə - Y.A.) idi. Ön cəbhədə yerləşdiyi ilk günlərdən müharibənin ağır sınaqları ilə üzləşərək şərəfli döyüş yolu keçmiş bu hərbi hissədə əsgər C.Xəlilov hərbi xidmətini davam etdirib. O, 1992-ci ilin iyun ayında Ağdam-Ağdərə döyüş bölgəsində torpaqlarımızın müdafiəsində dayanıb, düşmənə qarşı qətiyyətlə vuruşub. Onun döyüş yolu müddətcə qısa olsa da, müharibə gerçəkliyində xeyli ölüm-itimli anın sarsıntısını yaşayıb. Komandirlərinin qarşıya qoyduğu döyüş tapşırıqlarını cəsur döyüşçü kimi yerinə yetirib.



Əsgər C.Xəlilovun son döyüşü 1992-ci ilin iyun ayının 25-də olub. 18.01.1993-cü il tarixli ölüm haqqında şəhadətnamədə əsgər C.Xəlilovun Aranzəmin kəndi (bəzi mənbələrdə Aranzəminli kəndi adı ilə göstərilir, Əsgəran ətrafında yerləşir - Y.A.) uğrunda döyüşdə qəhrəmancasına həlak olduğu qeyd edilib.

Daxili Qoşunların Arxivindən verilən 04.11.2019-cu il tarixli arayışda əsgər C.Xəlilovun Aranzəmin kəndində gedən döyüş zamanı aldığı çoxsaylı qəlpə yarasından həlak olduğu, adının Daxili Qoşunların şəhid hərbi qulluqçularının siyahısında 404-cü sıra nömrəsi ilə qeydə alındığı məlumatı öz əksini tapıb.

Şəhid əsgər C.Xəlilov Sabirabad rayonu Çığırğan kəndinin qəbiristanlığında dəfn olunub. Məzarı üzərində ölüm tarixi 27.06.1992-ci il həkk edilib, bu da çox güman ki, dəfn günü ilə bağlıdır.

1998-ci ildə "Dünya" nəşriyyatında çap edilən, Rövşən Azərinin müəllifi olduğu "Unutmaq olarmı sizi şəhidlər..." kitabında şəhid hərbi qulluqçumuz haqqında məlumat verilib.

Bu gün Sabirabad rayonu Çığırğan kəndindəki tam orta məktəb şəhid əsgər C.Xəlilovun adını daşıyır. Məktəbin giriş hissəsində şəhidin xatirə barelyefi vurulub. Kənddə Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış həmyerlilərin xatirəsinə "Şəhid bulağı-abidə kompleksi" yaradılıb. Cəlalın nəinki doğma kəndinin, bütövlükdə, rayonun ilk şəhidi olduğu bildirilir.

Qeyd edim ki, şəhidin qardaşı Rauf Xəlilov da respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib, o, polis əməkdaşı olub. Rauf kiçik qardaşının müharibədə həlak olmasından çox sarsılıb. Onun həyatı qardaşının ölümündən bir neçə il sonra faciəvi sonluqla bitib.

Xəlilovlar ailəsi üçün iki oğul itirmək sağalmaz ağrı-acı deməkdir. Rauf və Cəlal doğmalarının, silahdaşlarının, bütün onları tanıyanların xatirəsində silinməz iz qoyublar. Vətənə ləyaqətli övladlar yetişdirmiş hər bir ailə hörmət və ehtirama layiqdir.

Şəhidin valideynləri vəfat ediblər. Böyük bacısı Vəfa Əliyeva Salyan rayonunda yaşayır. Ata ocağında yaşayan kiçik bacısı Zahidə Xəlilovadır.

Cəlalın məzarı üzərində daim üçrəngli bayrağımız dalğalanır. İşğal altında qalan torpaqlarımız azad olunduğu, o yurdlarımızın üzərində müqəddəs bayrağımız dalğalandığı gün Cəlalın və digər şəhidlərimizin ruhu şad olacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

**P.S. Məqalə üçün lazım olan məlumatların toplanmasında köməklik göstərən şəhidin bacısı oğlu, Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin zabiti baş leytenant Fuad Əliyevə təşəkkürümü bildirirəm.**

4_Layout 1 27.11.2019 18:40 Page 1



# 23 DEKABR AZƏRBAYCAN RESPUBLİKASINDA BƏLƏDİYYƏ SEÇKİLƏRİ GÜNÜDÜR

***(Azərbaycan Respublikasının Seçki Məcəlləsindən çıxarış)***

**SƏSVERMƏ QAYDALARI**

Seçki hüququnun prinsipləri və seçki sisteminin əsasları Azərbaycan Respublikası Konstitusiyası ilə tənzimlənir.

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin, ümumxalq səsvermənin - referendumun təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

**Seçki prosesinin mərhələləri**

**Seçki prosesi aşağıdakı mərhələlərdən ibarətdir:**

- seçkilərin təyin edilməsi;
- seçki dairələrinin və məntəqələrinin yaradılması;
- seçki orqanlarının, komissiyaların yaradılması;
- seçicilərin siyahıya alınması - seçicilərin qeydiyyatı;
- namizədlərin irəli sürülməsi;
- təşviqat kampaniyası;
- səsvermə, səslərin hesablanması və nəticələrin müəyyən edilməsi;
- səsvermənin yeni turu və ya təkrar seçkilərin keçirilməsi;
- seçki nəticələrinin son dəfə müəyyən edilməsi.

**Səsvermə hüququnun həyata keçirildiyi yer və vaxt**

Seçkilər günü səsvermə saat 08:00-dan 19:00-dək keçirilir. Səsvermə Məntəqə Seçki Komissiyasının səsvermə gününə azı 25 gün qalmış səsvermənin yeri və vaxtı haqqında kütləvi informasiya vasitələri və ya məlumat lövhələri vasitəsilə seçiciləri xəbərdar etdiyi müvafiq yerlərdə və vaxtda keçirilir.

**Səs vermək üçün seçici hansı sənədləri təqdim etməlidir?**

Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini Məntəqə Seçki Komissiyasının üzvünə təqdim etməlidir:

- ümumvətəndaş pasportu;
- Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsini;
- hərbi xidmətdə olan zabitlər - zabitin şəxsi vəsiqəsini;
- hərbi xidmətdə olan əsgərlər - hərbi bileti;
- qaçqın və məcburi köçkünlərin şəxsiyyət vəsiqəsi yoxdursa - qaçqın və məcburi köçkün olmasını təsdiq edən vəsiqə.

**Səsvermə hansı qaydada həyata keçirilir?**

Vətəndaşların öz iradəsini sərbəst, şəxsi və gizli şəkildə ifadə etdiyi səsvermə seçki prosesinin həlledici mərhələlərindəndir.



**Səsvermə prosesi Məntəqə Seçki Komissiyası tərəfindən səsvermə qaydalarına əməl olunmasını təmin etməklə həyata keçirilir:**

- Məntəqə Seçki Komissiyasının məlumat üçün cavabdeh olan üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə gələn seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədlərini yoxlayır;
- seçiciyə şəxsiyyətini təsdiqləyən müvafiq sənədləri təqdim etmədikdə onun səsvermə hüququnun həyata keçirilməsinin qeyri-mümkünlüyünü izah edir;
- adı seçicilər siyahısında tapılmadıqda seçicinin adının seçicilər siyahısına salınması üçün seçiciyə məhkəməyə müraciət etməsini izah edir;
- ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin gözlə görünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır;
- əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, dərhal məntəqəni tərk etməsini tələb edir;
- seçicinin səs vermək üçün ona bülleten və zərf verən Məntəqə Seçki Komissiyasının cavabdeh üzvünün yanına göndərir;
- seçicinin səs vermək hüququnu yoxlayan və bülleten verən Məntəqə Seçki Komissiyasının üzvü seçicinin adını seçicilər siyahısında tapır;
- təqdim olunmuş şəxsiyyəti təsdiqləyən sənədin seriya və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;
- seçiciyə sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözlə görünməyən mürəkkəblə işarələnməsini təklif edir və işarələyir.

**Bu prosesdən imtina edən seçiciyə Məntəqə Seçki Komissiyasının nümayəndəsi səsvermə hüququndan istifadə edə bilməyəcəyini izah edir və belə olan halda səsvermə məntəqəsini tərk etməyi tələb edir.**

- seçiciyə möhürlənmiş zərf və seçki bülleteni verir;
- seçki bülletenini seçiciyə verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;
- adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı "seçicinin seçki bülleteni alması haqqında" qrafasında imza etməsini xahiş edir;
- seçiciyə boş səsvermə kabinəsinə keçməsi;
- seçki bülletenində işarə qoyması;
- bülleteni qatlaması və onu Məntəqə Seçki Komissiyasının möhürü ilə möhürlənmiş zərfə qoyması və seçki qutusuna salması barədə məlumat verir.

**Səsverməni seçicilər aşağıdakı qaydada həyata keçirir:**

- seçici seçicilər siyahısında yazıların düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir;
- hər seçici seçicilər siyahısında imza edərkən yalnız bir seçki bülleteni alır;
- seçici seçki bülleteninə işarəni səsvermə kabinəsində gizli şəkildə qoyur;
- başqasının əvəzindən səs verməyə icazə verilmir;
- seçici bülleten qoyulmuş zərfi seçki qutusuna salır;
- seçki bülletenini korlamış seçici korlanmış bülleteni qaytarmaqla ona yeni bülleten verilməsini xahiş edir;
- seçici səs verdikdən sonra dərhal seçki məntəqəsini tərk edir;
- seçki bülleteni almaq və ya doldurmaq üçün yardıma ehtiyacı olan seçici Məntəqə Seçki Komissiyası üzvləri və müşahidəçilər istisna olmaqla, aktiv seçki hüququ olan digər şəxsə müraciət edə bilər.

**Seçiciyə kömək etmiş şəxs seçici siyahısında seçicinin seçki bülletenini alması haqqında qrafadakı imzası qarşısında imza atır. Yardıma ehtiyacı olan seçiciyə boş səsvermə kabinəsinə daxil olmasına kömək edir. Ehtiyac yaranarsa, kömək göstərən şəxs də seçici ilə birlikdə səsvermə kabinəsinə daxil ola bilər.**

**Seçici hansı halda səsvermə otağından kənarda səs verə bilər?**

Seçki günü səhhətinə görə və ya digər üzrlü səbəbdən seçki məntəqəsinə gələ bilməyən vətəndaşların daşınar seçki qutusu vasitəsilə kənarda səs vermək hüququ vardır. Səsvermə otağından kənarda səsvermə aşağıdakı qaydada həyata keçirilir:

- seçici seçki gününə ən azı 24 saat qalmış Məntəqə Seçki Komissiyasına yazılı və ya şifahi müraciət etməlidir;
- əgər seçici səsvermə otağından kənarda səs vermək üçün əvvəlcədən yazılı deyil, şifahi müraciət edibsə, ərizəni Məntəqə Seçki Komissiyası üzvünün iştirakı ilə yazmalıdır;
- ərizədə seçici möhürlənmiş seçki bülleteni və zərf almasını öz imzası ilə təsdiqləyir;
- ərizədə şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənədin seriya nömrəsi, seçici haqqında seçicilər siyahısındakı digər məlumatlar da qeyd olunur.

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BAŞ İDARƏSİ KÖNÜLLÜLÜK ƏSASINDA QOŞUNLARIN GİZİR VƏ MÜDDƏTDƏN ARTIQ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇUSU VƏZİFƏLƏRİNDƏ HƏRBİ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR



**Müsabiqədə ən azı ümumi orta təhsilli, yaşı 25-dən yuxarı olmayan, boyu 175 santimetrdən hündür, idman cüssəli, müddətli həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.**

Həmin vəzifələrdə xidmətin xüsusiyyətləri aşağıdakılardır:

– xidmətə qəbul olunarkən əvvəlcə 3 illik müqavilə bağlanılır, xidmət müddəti başa çatdıqdan sonra müqavilənin müddəti dayandırıla və ya uzadıla bilər;

– yaşadıqları şəhər və rayonlardan 100-150 km aralı xidmət edirlər (Bakı və Sumqayıt şəhərləri istisna olmaqla);

– vəzifəsindən asılı olaraq 850 manat və daha yüksək əməkhaqqı alırlar;

– subay hərbi qulluqçular yataqxana ilə təmin edilir, kirayədə yaşayan ailələrə isə kirayə haqqı ödənilir.

**Hərbi xidmətə qəbul olunmaq istəyənlər hər gün (istirahət və bayram günləri istisna olmaqla) saat 09:00-dan 18:00-dək Bakı şəhərində qeydiyyatda olanlar Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4 ünvanında yerləşən Daxili Qoşunların Baş İdarəsinə, digər şəhər və rayonlarda qeydiyyatda olanlar isə Daxili Qoşunların yaxın regionlarda yerləşən hərbi hissələrinin komandirlərinə müraciət edə bilərlər.**

**Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.**

*Sağlamlıq*

## Su: hər damcısında həyat var

**Canlıların yaşaması üçün əsas vasitə hesab edilən su həyat mənbəyidir. Yer üzünün 75 faizini təşkil edən suyun yalnız 2,5 faizi təmizdir. İnsan səhhətində baş verən xəstəliklərin 80 faizi təmizlənməmiş suyun qəbulu nəticəsində baş verir.**



Həkim-fitoterapevt Ulduz Hüseynova suyun faydalı və mühüm keyfiyyətləri barədə danışarkən AZƏRTAC-a deyib: "Suyun tərkibində müxtəlif üzvi maddələr və az miqdarda radioaktiv şüalar var. Su həm də universal mühitdir. Susuz yaşamaq çətin prosesdir. İnsan yeməksiz 6 həftə dözə bildiyi halda, susuz cəmi 2-3 gün davam gətirə bilər. İnsan orqanizmində oksigendən sonra ikinci yeri tutan su qanın 92, beyinin 72, sümüklərin isə 22 faizini təşkil edir. Su yeganə nemətdir ki, bütün qida maddələri yalnız suda həll olunmuş halda qana və toxumalara keçir".

O, daha sonra deyib: "Qaynadılmış su ölü su sayılır, çünki mikroelementlərin parçalanması nəticəsində su öz faydasını itirir. Maqnezium duzu ilə zəngin olan su çox faydalıdır. Gecə boyu bədən hüceyrələri yenilənir, özünü bərpa edir. Ona görə də səhər yeməyindən əvvəl bir-iki stəkan su içmək toksiki maddələrdən xilas olmaq, metabolizmi gücləndirmək və xəstəliklərdən qorunmaq üçün ideal vasitədir. Hər səhər acqarına içilən 2 stəkan su dəriyə elastiklik verir, onu gərginlik və qocalmadan qoruyur, orqanların mayeyə olan ehtiyacını ödəyir, toxluq hissi verir. Həyat mənbəyi olan su yağ və enerji yandırmağa da kömək edir. Limfa vəziləri və bağırsaqları infeksiyalardan qoruyur. Qastrit və mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlər üçün su ən yaxşı vasitədir".

*NÜMUNƏVİ XİDMƏT*

## GÜCLÜ İDMANÇI, ŞƏRƏFLİ ƏSGƏR

Xidməti vəzifələrini düzgün yerinə yetirən, bacarıqlı, yüksək hərbi intizama malik hərbi qulluqçularımızın çoxluq təşkil etməsi sevindirici haldır. Hərbi hissələrimizdə fəaliyyət göstərən ştatdankənar müxbir postlarından göndərilən məlumatlar əsasında nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularımızı müntəzəm olaraq oxucularımıza təqdim edirik. Əsgər Malik Həsənov da məhz belə hərbi qulluqçulardan biridir. Onu digər hərbi qulluqçulardan fərqləndirən nizam-intizamı, məsuliyyəti ilə yanaşı, çoxsaylı idman uğurunun olmasıdır.

Əsgər M.Həsənov 1998-ci ildə Mingəçevir şəhərində dünyaya göz açıb. 2015-ci ildə 4 saylı tam orta məktəbin 11-ci sinfini bitirərək Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. 2019-cu ildə ali təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Bu ilin iyul ayından etibarən Daxili Qoşunların sıralarında xidmət edir. Hal-hazırda 17072 saylı hərbi hissənin patrul bölüyündə atıcı vəzifəsindədir.



Patrul taborunun komandiri polkovnik-leytenant Şahin Mazanov bildirdi ki, əsgər M.Həsənov xidməti vəzifələrinin icrasında diqqətli və məsuliyyətlidir. O, hər zaman səliqə-sahmanı ilə seçilir, əsgər yoldaşları ilə ünsiyyət qurmağı bacarır və hərbi kollektivdə hörmət qazanıb. Bir idmançı kimi hər zaman formada qalması, məşq etməsi və uğurlarının davamlı olması üçün hərbi hissədə ona lazımi şərait yaradılıb.

Əsgər M.Həsənov atası İqrar Həsənovun gəncliyində idmanın boks növü ilə məşğul olması, bu sahədə uğurlar əldə etməsi və müxtəlif mükafatlar qazanmasının onun da boksa maraq göstərməsinə stimul verdiyini dedi. 5 yaşından etibarən idmanın bu növü ilə məşğul olduğunu, atasının yolunu davam etdirdiyini vurğuladı.

İkiqat Avropa, beşqat Azərbaycan çempionu, dəfələrlə beynəlxalq turnirlərin qalibi, Heydər Əliyev kubokunun sahibi, Böyük İpək yolu turnirinin medalçısı, birinci dərəcəli idman ustası olan əsgər M.Həsənov qeyd etdi ki, ən böyük arzusu olimpia çempionu olmaq, böyük arenalarda qüdrətli bayrağımızı dalğalandırmaq və şanlı himnimizi səsləndirməkdir.

İdmançı kimi bu günədək fəaliyyətində daim atası tərəfindən hazırlaşdırıldığını bildirən əsgərimiz uğurların da ona borclu olduğunu söylədi. Eyni zamanda, qardaşı X.Həsənovun da boksçu kimi yetişdiyini və yeniyetmə olmasına baxmayaraq, artıq bir neçə böyük turnirdə qalib gəldiyini dedi.

Məqalə çapa hazırlandığı ərəfədə əsgərimizin Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək yarışa hazırlaşdığını öyrəndik. Ona bu və növbəti yarışlarda uğurlar, ən əsası çempionluq zirvəsi arzulayırıq.

**gizir Ariz Aslanov**

## Allah rəhmət eləsin

17077 saylı hərbi hissənin komandanlığı və şəxsi heyəti polkovnik-leytenant Elxan Babayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin komandanlığı və şəxsi heyəti baş çavuş Musa Nadirova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000